UOT 94 (479.24)

# SƏFƏVİLƏR DÖVRÜNDƏ KƏND TƏSƏRRÜFATINDA İPƏKÇİLİK VƏ PAMBIQÇILIQ SAHƏLƏRİNİN İNKİŞAFI

**N.M.SÜLEYMANOV**
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***nizamisuleymanov@mail.ru***

*Məqalə Azərbaycan Səfəvi dövlətinin kənd təsərrüfatının mühüm sahələrindən olan ipəkçilik və pambıqçılığın inkişafı kimi az öyrənilmiş probleminə həsr olunmuşdur. Məqalədə Səfəvilər dövründə ipəkçiliyin Şirvan, Qarabağ, Gilan, Xorasan bölgələrində xüsusilə fərqləndiyi, ipəkçilik təsərrüfatının qapalılıqdan çıxaraq əmtəə-pul münasibətləri sisteminə cəlb olunması, bu sahənin dövlət xəzinəsinə böyük gəlir gətirməsi, həmçinin ölkə miqyasında pambığa tələbatın çox olması ilə əlaqədar pambıqçılıq təsərrüfatının inkişafı kimi məsələlər dövrün mənbələri və səyyah gündəliklərindən istifadə edilərək araşdırılmışdır.*

**Açar sözlər:** kənd təsərrüfatı, ipək, pambıq, Şirvan, Qarabağ, Gilan, Mazandaran, Təbriz

XVI-XVII yüzilliklərdə Səfəvi dövlətinin iqtisadiyyatının əsas sahəsi olan kənd təsərrüfatında ipəkçilik və pambıqçılıq mühüm yer tuturdu. Səfəvi hökmdarları I Təhmasibin və I Şah Abbasın həyata keçirdikləri aqrar siyasətə uyğun olaraq vergi sistemində aparılan islahatlar nəticəsində bir sıra vergilərin ləğv edilməsi, bəzi vergi və rüsumların azaldılması kənd təsərrüfatının inkişafına müsbət təsir göstərmiş və məhsuldar qüvvələrin inkişafı üçün müəyyən əlverişli şərait yaranmışdı. Kənd təsərrüfatı bölgələri ilə şəhərlər arasında ticarət əlaqələrinin güclənməsi bir tərəfdən daxili bazarın genişlənməsinə, təsərrüfatların qapalılığının pozulmasına, digər tərəfdən isə əmtəə-pul münasibətlərinin inkişafına gətirib çıxarırdı.

Səfəvi dövlətinin kənd təsərrüfatı istehsalında ipəkçilik xüsusi yer tuturdu. Təsərrüfatın bu sahəsinin inkişafı, ilk növbədə, daxili və xarici bazardakı xam ipəyə tələbatın çox olması ilə bağlı idi. Məlumdur ki, Azərbaycanın və İranın əhalisi baramaçılıqla qədim zamanlardan məşğul olurdu. Barama qurdu bəslənməsi və barama istehsalı sahəsində Səfəvi dövlətinin Şirvan, Qarabağ, Gilan və Xorasan bölgələri xüsusilə fərqlənirdi. Görkəmli tarixçi alim İ.P.Petruşevski İranda ipəkçiliyin hələ XIV əsrin 40-cı illərində yüksək səviyyəyə çatdığını qeyd etmişdir [1, 170].

Sözsüz ki, ipəkçilik qədimdən yalnız İranda (əsasən Gilan və Mazandaranda) deyil, Azərbaycanın Qarabağ və Şirvan bölgələrində də yüksək səviyyədə inkişaf etmiş və kifayət qədər çoxlu xam ipək istehsal olunurdu [2, 791; 3, 31]. Hələ XVI yüzilliyin əvvələrində Səfəvi dövlətində olmuş naməlum Venesiya tacirinin yazdığına görə, Təbriz şəhərində hər cür xam ipək tapmaq olar [5, 387]. Bu məlumat, təbii ki, Təbriz ətrafındakı bölgələrdə yüksək səviyyədə baramaçılıq təsərrüfatlarının olduğunu göstərir. 1561-1563-cü illərdə Səfəvi ölkəsinin bir çox bölgələrində olmuş Antoni Cenkinson İngiltərənin «Moskva» ticarət şirkətinin nümayəndəsi kimi burada ipəkçiliyin vəziyyəti ilə ciddi surətdə maraqlanmışdı. A.Cenkinson Şirvan bölgəsi haqqındakı qeydlərində göstərirdi ki, Şirvanın əsas yerli məhsulu cürbəcür ipəkdir və burada xam ipək olduqca çoxdur [4, 113]. «Moskva» şirkətinin başqa bir nümayəndəsi, ingilis taciri Artur Edvards A.Cenkinsondan bir qədər sonra-1566-cı ildə Şirvanda olmuşdu. A.Edvards yazırdı ki, əgər Şamaxıda şirkətin nümayəndəsi olarsa, yay aylarında burada qalaraq xam ipəyi birbaşa kənd sakinlərindən, yəni birinci əldən ala bilərik. Çünki xam ipəyi sakinlər Şamaxı şəhərinə satmaq üçün ətraf bölgələrdən gətirirlər. Beləliklə, şirkət hər il Şirvandan 30-40 min funt (bir funt 0,5 kq-a bərabər idi. Təxminən 15-20 ton – **N.S.**) xam ipək ala bilər [4, 127].

İngilis tacirlərinin bu məlumatları göstərir ki, Azərbaycanın baramaçılıq təsərrüfatları qapalılıqdan çıxaraq əmtəə-pul münasibətləri sisteminə cəlb olunmuşdu və onların çox qiymətli məhsulu birbaşa bazara çıxarılırdı. Təkcə bir şirkətin 30-40 min funt və yaxud 15-20 min kiloqram (800 taya qədər) xam ipək satın ala bilməsi XVI yüzillikdə barama istehsalının yüksək inkişafının göstəricisi sayıla bilər. «Moskva» şirkətinin nümayəndələrindən bir qədər sonra – 1571-ci ildə Qəzvinə gəlmiş Venesiya səyyahı Vinçento Alessandri də Səfəvi məmləkətinin hər yerində xam ipəyin bol olmasından yazırdı [5, 446].

İpəkçilik ölkəyə, dövlət xəzinəsinə böyük gəlir gətirdiyindən, Səfəvi hökmdarları bu sahəni inkişaf etdirmək üçün hətta qeyri-adi tədbirlərə əl atırdılar. Fpansız səyyahı Şardenin qeydlərindən aydın olur ki, I Şah Abbas Qafqazın müxtəlif yerlərindən 30 min nəfər xristian əhalini Mazandarana köçürmüşdü. Bu zaman şahın əsas məqsədi bu bölgənin əhalisini çoxaltmaqdan və orada ipəkqurdu bəslənməsini, yəni baramaçılığı inkişaf etdirməkdən ibarət idi. Şah xristian əhalidən, xüsusilə ermənilərdən həm də Xəzər dənizi vasitəsilə onlarla həmməzhəb olan moskvalılarla ticarət əlaqələri qurulmasında da istifadə etmək istəyirdi [6, c.2, 693-694].

1636-1639-cu illərdə Azərbaycanda olmuş alman bilik adamı Qolşteynli Adam Olearinin yazdığına görə, ilindən asılı olaraq Səfəvi məmləkətində 10 mindən 20 min taya qədər, yaxud 10 min soom (hər soom 2 taydan ibarətdir) xam ipək yığılır və 1 tay - 216 funt hesab olunur. Təkcə Gilan, il məhsuldar olduqda - 8 min tay, Şirvan - 3 min tay, Xorasan 3 min tay, Mazandaran - 2 min tay xam ipək verir. Gürcüstanın nə qədər ipək verdiyi hesablanmamışdır və başqa yerlərdə də ipək boldur. Bu qədər xam ipəyin daxili tələbat üçün istifadə olunan hissəsi min taydan çox deyildir [2, 791].

Fransız səyyahı Şarden isə Səfəvi ölkəsində hər il 22 min tay xam ipək istehsal olunduğunu yazırdı. Şardenə görə, həmin ipəyin 10 min tayı Gilanın, 2 min tayı Mazandaranın, 3 mini Xorasanın, 3 mini Azərbaycanın (cənub torpaqları nəzərdə tutulur – **N.S.**), 2 mini Qarabağın, 2 min tayı isə Gürcüstanın payına düşürdü. Hər tayın 276 livr (bir livr 0,5 kq-a bərabər idi- **N.S.**) olduğunu göstərən Şarden bütün ipək məhsulunun ümumi dəyərinin ondan on iki milyona qədər təşkil etdiyini [7, c.4, 368-369] bildirsə də, bu rəqəmin hansı pul vahidi ilə - ekü, yoxsa tümənlə ifadə olunduğunu, təəssüf ki, göstərməmişdir. Buna baxmayaraq, Şarden Səfəvi dövlətinin hər il Hindistana və başqa ölkələrə ixrac edilən xam ipək üzərinə qoyulan gömrük rüsumundan 4 min tümən (40 min dinar) mənfəət götürdüyünü qeyd etmişdir. Şardenə görə, Şirvan və Gilan xam ipəyi daha keyfiyyətli idi [7, c.4, 369-370; 3, 31]. Şarden öz gündəliyində Səfəvi dövlətində Ardeş (Ərəş), Legia və ya Legian (Leji-Gilanda kiçik şəhər), Kədxodapəsənd, Şərbaf adlı dörd növ ipəyin istehsalı haqqında da məlumat verilmişdir [7, c.4, 369-370].

Qeyd etmək lazımdır ki, Avropa səyyahları yuxarıda gətirilən rəqəm göstəricilərini hakimiyyət orqanlarından aldıqlarına görə, həmin rəqəmlər istər Azərbaycanın cənub bölgələrində, istərsə də Şirvan və Qarabağda istehsal edilən bütün ipəyin dəqiq miqdarını ifadə edə bilməzdi. Çünki ölkənin bütün vilayətlərində istehsal olunan ipəyin heç də hamısı dövlət orqanlarında qeydiyyata alınmırdı. Ölkənin vilayətlərində yetişdirilən baramanın bir hissəsi elə həmin vilayətlərin maliyyə ehtiyaclarını ödəmək üçün yerli bazarlarda satılırdı. Digər tərəfdən, Şamaxıda, Ərəş və Gəncədə hər il xarici tacirlər külli miqdarda xam ipək alıb, öz ölkələrinə aparır və ya göndərirdilər. Vilayətlərin bazarlarında əcnəbi tacirlərə satılan ipək məhsulu yerlərdə uyğun dövlət idarələrində qeydə alınmırdı. Bir sıra ölkələrin tacirlərinin müxtəlif vaxtlarda gömrük imtiyazlarından istifadə edərək ipəyi ölkədən rüsum ödəmədən aparması nəzərə alınarsa, ipək məhsulunun bir hissəsi, ümumiyyətlə, qeydiyyatdan kənarda qalırdı. Odur ki, A.Oleari, J.Şarden və başqalarının ölkənin xam ipək istehsalının həcmi haqqında gətirdikləri rəqəmləri tam göstərici kimi qəbul etmək olmaz. Ona görə də, belə bir mülahizə söyləməyə əsas var ki, Şirvan, Qarabağ və Azərbaycanın cənub bölgələrində səyyahların göstərdiklərindən xeyli çox barama istehsal olunurdu.

Qeyd etmək lazımdır ki, Səfəvi imperiyası ərazisində istehsal edilən bütün xam ipəyin təqribən üçdəbir hissəsi Şirvan və Qarabağ vilayətlərinin payına düşürdü. Azərbaycanın Gəncə və Şəki bölgələrinin təsərrüfat həyatında da baramaçılıq mühüm rol oynayırdı. 1647-ci ildə Azərbaycanda olmuş türk səyyahı Evliya Çələbi Gəncədə baramaçılığın inkişafı haqqında öz gündəliyində belə yazırdı: «Gəncə şəhərində 6 min ev (adam sayı ilə hər evə 5-6 nəfər götürülür, deməli, 30-35 min nəfər – **N.S.**), karvansara, üstüörtülü abad bazar vardır. Bağlı-bağçalı olan bu şəhər düzənlikdə yerləşir. Şəhərin cənub tərəfi dağlarla əhatə olunmuşdur. Düzənliyi başdan-başa tut ağacı bağları ilə əhatə olunmuşdur. Gəncənin tut ipəyi hər tərəfdə məhşurdur» [8, c.2, 286-287;

9, 56]. Səyyaha görə, Gəncədən bir qədər şimalda yerləşən və Gəncə xanının xassəsi olan «Kelke Hezar Əhmədi» adlı yerdə 700 evdən ibarət böyük bir abad kənd vardır və öz zərif (nazik) ipəyi ilə məşhurdur. Həmin kənddən şimal tərəfdə - 9 saatlıq məsafədə Məkuçrud kəndi yerləşir. Kür çayının kənarında salınmış, 700 evi, cümə məscidi və hamamı olan bu müsəlman kəndində bir nəfər də olsa, kafir yoxdur. Oranın ipəyi çox şöhrət tapmışdır [8, c.2, 287; 9, 56-57]. E.Çələbinin gündəliklərindən məlum olur ki, 3 min evdən ibarət Şəkinin kəndlərində də əhali əsasən baramaçılıqla məşğul olurdu. Şəkinin bağ və bağçalarında gözəl ipək istehsal edilirdi [9, 58-59]. Səyyaha görə, bu dövrdə Şirvanın əsas baramaçılıq təsərrüfatı mərkəzlərindən biri Mahmudabad nahiyəsi idi. Buradakı geniş düzənlikdə 200 abad kənd vardı ki, deyilənə görə, ildə 1000 dəvə yükü ipək istehsal olunurdu [9, 59].

İqtisadı baxımdan inkişaf etmiş Avropa ölkələrindən Səfəvi ölkəsinə gəlmiş səyyah və tacirləri burada ipəkçilik təsərrüfatı daha çox maraqlandırdığından onların gündəlik və yol qeydlərində Azərbaycanda ipək istehsalı haqqında E.Çələbinin verdiyi məlumatlardan qat-qat daha çox faktlar vardır. Avropa səyyahlarından bəziləri nəinki ölkədə ipək istehsalının inkişaf səviyyəsi, hətta ipəkqurdunun bəslənməsi üsulları haqqında da çox qiymətli məlumatlar vermişlər. Məsələn, alman alimi Adam Oleari ipəkqurdu bəslənməsində əsas rol oynayan tut ağaclarının becərilməsi haqqında ətraflı məlumat verərək yazırdı ki, burada tut ağaclarını 5,5 funtdan artıq ucalmağa qoymurlar [2, 737].

XVI - XVII əsrlərdə Səfəvi dövlətinin kənd təsərrüfatında pambıqçılıq da mühüm yer tuturdu. Təsadüfi deyil ki, həmin dövrdə Azərbaycanda olmuş Avropa səyyahlarının əksəriyyəti pambıqçılıq təsərrüfatının vəziyyətini diqqətdən kənarda qoymamış və bu sahə haqqında maraqlı məlumatlar vermişlər [4, c.1, 148; 2, 737-738; 8, c.2, 233, 241-242, 296-297]. Həmin məlumatlar belə bir nəticəyə gəlməyə imkan verir ki, ölkədə pambıqçılıq təsərrüfatı məhsulu daha qaba olan kətan istehsalını artıq sıxışdırmışdı.

XVI əsrin 70-ci illərində Səfəvi ölkəsində olmuş ingilis taciri Lores Çepmen yazırdı ki, burada həm çox, həm də olduqca keyfiyyətli pambıq vardır. Pambıq hündürlüyü insan köksünə çatan, bəzən ondan bir qədər uca olan kiçik ağacda, yaxud tikanlı kolda bitir. Bu ağacın göyəm, yaxud da mixək kolu kimi incə gövdəsi var və olduqca qollu-budaqlıdır. Onun hər bir budağında içərisində lif olan meyvə, daha doğrusu, qabıqlı qın əmələ gəlir. Bu qoza, yaxud qın yunan qozu boyda olduqda açılır və içərisindən lifləri görünür. Həmin qozalar insan yumuruğu böyüklüyünə qədər inkişaf edir, lifləri qoyun yununa bənzəyərkən daha çox aşağı çevrilir. Bu vaxt pambıq tam yetişmiş olur və yığılır. Pambıq ağacının toxumu noxud boyda olur, qara rəngi var, yumru deyil, daha çox yastıdır. Pambığın toxumunu şumlanmış sahəyə səpirlər. İranın (Səfəvi – **N.S.**) bir çox mahallarında olduqca çox pambıq becərilir [4, c.1, 148].

Alman alimi A.Oleari Səfəvi dövlətində pambıqçılıq təsərrüfatının inkişafını ölkə miqyasında bu məhsula olan tələbatın çox oması və pambıq parça, istehsalının artması ilə əlaqələndirirdi. A.Oleariyə görə, pambıq parça, demək

olar ki, ölkənin bütün vilayətlərində istehsal edilirdi. O, pambığı əsas sənətkarlıq və ticarət bitkisi adlandırır. Oleari yazırdı ki, bu ölkədə çox böyük miqdarda və saysız-hesabsız çeşiddə pambıq parça toxunur. Elə şəhər və kəndlər var ki, orada pambıq yetişdirilir. Rəvan, Naxçıvan, bütün Qarabağ və Azərbaycanda, habelə Xorasanda pambıq becərilir, Gilanda isə pambıq bitmir [2, 737-738]. A.Oleari Avropada yetişməyən bu qəribə bitkinin özünəməxsus cəhətlərinə də diqqət yetirmişdir. O yazırdı ki, pambıq bitkisi primitiv şəkildə inkişaf edir və bir qulac boy atır. Yarpaqları üzüm yarpaqlarına bənzəməklə ondan bir qədər kiçikdir. Budaqlarının ucundakı qoz boyda yumrular yetişərkən pardaxlanıb, dörd, yaxud altı yerə bölünərək yana əyilir [2, 737-738].

Fransız səyyahı Şarden də avropralılar üçün tamamilə yeni olan pambıq bitkisi və pambıqçılıq təsərrüfatı haqqında maraqlı məlumatlar vermişdir. O yazırdı ki, Səfəvi məmləkətinin bütün bölgələrində pambıq bitir. Düzənlikdə yerləşən bir çox tarlalar başdan-başa pambıq şaxları ilə örtülmüşdür. Pambığın qozası xaş-xaş qozası kimidir, ancaq dairəvidir. Hər qozada paxla dənəsi boyda qara rəngdə toxum vardır [6, c.2, 712].

Osmanlı elçisi və səyyahı Evliya Çələbi digər ölkələrin səyyah və tacirlərindən fərqli olaraq Səfəvi məmləkətinin pambıqçılıq təsərrüfatı haqqında daha geniş və daha ətraflı məlumatlar vermişdir. Türk səyyahı Naxçıvan bölgəsində olarkən burada 7 növ pambıq becərildiyini qeyd etmiş, ancaq nədənsə onlardan zaği, munlayi, zəfəranı, ləli, bəyaz və xas adlanan 6 növünün adını çəkmişdi [8, c.2, 233]. Səyyahın qeydlərindən aydın olur ki, ilk 4 pambıq növü qırmızı, digərləri isə ağ (bəyaz) rəngdə idi. Səyyahın yazdığına görə, Azərbaycanın cənubunda, Mərənd çayı ətrafında çoxlu yüksəkkeyfiyyətli və tərifli pambıq becərilir, Kərkənə adlı 300 evdən ibarət bu abad kəndin pambıqçıları öz tarlalarını quyu suyu ilə suvarırdılar [8, c.2, 241-242]. Təbrizdə də 7 növ pambıq yetişdirildiyini qeyd edən [9, 26] E.Çələbi 1647-ci ildə Bakıda olarkən onun nahiyələrində pambıq becərildiyini belə təqdim etmişdir: «Orada yaxşı pambıq əmələ gəlir» [8, c.2, 296-297; 9, 68]. Səfəvi dövlətinə gələn əcnəbi tacir və səyyahlar başqa Şərq ölkələrində olduğu kimi öz dövlətlərinin iqtisadi və ticarət maraqlarından çıxış etdikləri üçün burada təsərrüfatın əsasən onlar üçün mühüm əhəmiyyət kəsb edən sahələri haqqında daha geniş və hərtərəfli məlumatlar toplamağa çalışırdılar.

Qərbi Avropa tacir və səyyahlarının gündəliklərindəki məlumatlar ipəkçiliyin ölkə iqtisadiyyatının çox mühüm sahələrindən biri olduğunu və həmin sahənin ümumölkə miqyasında inkişaf etdiyini təsdiqləyir.

### ƏDƏBİYYAT


1. Петрушевский И.П. Земледелие и аграрные отношения в Иране в XIII – XIV веках. М-Л.: АН СССР, 1960, 492 с.
2. Адам Олеарий. Подробное описание путешествия Голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах. Пер. с немец. П.Барсова, М., Университетская типография, 1870, 1033с.
3. Sazmane edare-ye hökuməte Səfəvi-ya. Təliğate Minorski bər təzkirət əl müluk. Tərcome-ye

Məsud Rəcəbniya,Tehran: Enteşarate Əmir Kəbir, h. 1368, 340 s.
4. Путешественники об Азербайджане. Т.1, Составитель З.И. Ямполский, Баку: АН Азерб.ССР, 1961,497 с.
5. Səfərnameha-ye Veneziyan dər İran. Tərcome-ye Mənucöhr Əmiri, Tehran: Enteşarate Xarəzmi, h. 1346, 450 s.
6. Şarden. Səfərname-ye Şarden. Tərcome-ye Eğbal Yəğmai, c. I-V Tehran: Capxane-ye Heydəri, h.1372-1374,c.II, 464-912 s.
7. Şarden. Səfərname-ye Şarden. Tərcome-ye Məhmməd Abbasi, c. II-IV Tehran: Enteşarate Əmir Kəbiri, h. 1335-1336, c.IV, 550 s.
8. Evliya Çelebi. Seyahatnamasi. İkinci ciel, İstanbul: Karbeş matbaası, 1314, 466s.
9. Evliya Çelebi. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru, professor Seyidağa Onullahi. Bakı: Azəbaycan Dövlət Nəşriyyatı, 1997, 87 s.

## РАЗВИТИЕ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ ШЕЛКА И ХЛОПКА ВО ВРЕМЕНА СЕФЕВИДОВ

**Н.З.СУЛЕЙМАНОВ**

### РЕЗЮМЕ

Статья посвящена малоизученной проблеме государства Сефевидов в сельском хозяйстве шелка и хлопка. Во время Сефевидов Ширван, Карабах, Гилан, особенно в различных регионах Хорасана, участие шелковой промышленности вышел из тайности и вошел в систему товарно-денежных отношений, которая является приносящей большие доходы в государственную казну, а также используя источники из дневников путешественников проанализирован спрос на хлопок в стране, связанных с развитием хлопководства.

**Ключевые слова:** сельское хозяйство, шелк, хлопок, Ширван, Карабах, Гилян, Мазандаран, Тебриз

## DEVELOPMENT OF SILK AND COTTON AGRICULTURE DURING THE SAFAVI RULE

**N.M.SULEYMANOV**

### SUMMARY

The article is devoted to the little-known problem of the Safavi state in silk and cotton agriculture. During the Safavid rule, the participation of the silk industry in Shirvan, Garabagh, Gilan, especially in the various regions of Khorasan, came out of secrecy and entered into commodity-monetary relations of the system that generated large revenues to the state treasury.

**Key words:** agriculture, silk, cotton, Shirvan, Garabagh, Gilan, Mazandaran, Tabriz